# Azərbaycan Respublikası Prezidentinin "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 22 fevral tarixli 1255 nömrəli, "Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 3 may tarixli 1360 nömrəli, "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2019-cu il 29 yanvar tarixli 500 nömrəli, "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" 2019-cu il 11 aprel tarixli 622 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 199; 2018, № 6, maddə 1236; 2021, № 1, maddə 43; 2022, № 12, maddə 1442; 2023, № 2, maddə 245) 7-ci hissəsində "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

2. "Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1360 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 764) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissədə "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi Qaydası"nın 2.1-ci, 3.1-ci və 3.2-ci bəndlərində ismin müvafiq hallarında "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1645; 2019, № 6, maddə 1031; 2021, № 1, maddə 44; 2022, № 5, maddə 467, № 8, maddə 856; 2023, № 2, maddə 245) ilə təsdiq edilmiş "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 4.2.11-ci yarımbəndində "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 90, № 11, maddə 1719; 2020, № 8, maddə 1039, № 12 (I kitab), maddə 1479; 2021, № 3, maddə 225, № 5, maddə 452, № 6 (I kitab), maddə 572, № 9, maddə 989, № 10, maddə 1103; 2022, № 5, maddə 462, № 6, maddə 599, № 12, maddə 1438) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın "7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 7.1.44-cü yarımbəndin "İcraçılar" sütununda "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

4.2. 7.1.45-ci yarımbəndin "İcraçılar" sütunundan "Maliyyə Bazarlarına Nəzarət Palatası," sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622; 2020, № 1, maddə 12, № 4, maddə 424, № 6, maddə 708; 2021, № 2, maddə 119, № 5, maddə 452, № 6 (I kitab), maddə 574; 2022, № 2, maddə 116, № 4, maddə 305, № 8, maddə 848, № 12, maddə 1436; 2023, № 3, maddə 374, № 4, maddə 479) ilə təsdiq edilmiş Əlavə 1 - "Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 29.6-cı bəndi ləğv edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1587; 2022, № 12, maddə 1425) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi haqqında Əsasnamə"nin 4.0.17-ci yarımbəndində "Maliyyə Bazarlarına Nəzarət Palatasına" sözləri "Mərkəzi Bankına" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 avqust 2023-cü il*

Azərbaycan. -2023.- 3 avqust.- S. 12.